# “Molla Nəsrəddin” və mollanəsrəddinçilər
# Heydər Əliyevin elmi dəyərləndirmələrində

**Gülbəniz Babayeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: gulbeniz-babayeva@mail.ru

**Annotasiya.** Məqalədə Ümummilli lider Heydər Əliyevin klassik Azərbaycan ədəbiyyatına, milli mətbuatımıza verdiyi yüksək dəyərdən bəhs olunur. Ulu öndər hakimiyyətdə olduğu dövrdə həmişə zəngin və çoxəsrlik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri Nizami, Nəsimi, Füzuli, Vaqif, M.F.Axundzadə, C.Məmmədquluzadə, Ü.Hacıbəyli, S.Mümtaz və digər söz sənətkarlarının əsərlərinin nəşrinə, yubileylərinin keçirilməsinə, muzeylərinin yaradılmasına və yaradıcılıqlarının elmi təhlilə cəlb olunmasına xüsusi diqqət yetirmişdir.
Ulu öndərin, sənətinə, geniş ədəbi və ictimai fəaliyyətinə böyük dəyər verdiyi yazıçılarımızdan biri də XX əsr Azərbaycan realist ədəbiyyatının qüdrətli nümayəndəsi Cəlil Məmmədquluzadədir. Heydər Əliyev ədibin yubileyləri ilə bağlı etdiyi dərin məzmunlu məruzə və çıxışlarında Mirzə Cəlil irsinin ayrı-ayrı məqamlarını ön plana çəkərək, yazıçının “Anamın kitabı”, “Ölülər” kimi monumental əsərlərini Azərbaycan xalqının həyatında və taleyində mühüm rol oynayan əsərlər kimi səciyyələndirmişdir. Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşr olunan “Molla Nəsrəddin” satirik jurnalının elm, təhsil, ana dili, qadın azadlığı problemlərinin həlli istiqamətində apardığı mübarizənin tarixi əhəmiyyətini yüksək dəyərləndirmişdir. Bununla yanaşı, Cəlil Məmmədquluzadə başda olmaqla “Molla Nəsrəddin” ədəbi cəbhəsinin görkəmli nümayəndələri M.Ə.Sabir, Ü.Hacıbəyli, S.Mümtaz və başqa mollanəsrəddinçilərin ədəbiyyatımızın və mətbuatımızın inkişafındakı böyük xidmətlərini diqqət mərkəzində saxlamışdır.
**Açar sözlər:** Ümummilli lider Heydər Əliyev, “Molla Nəsrəddin” jurnalı, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyli, Salman Mümtaz, klassik irs, realist ədəbiyyat

**Məqalə tarixçəsi:** göndərilib – 13.10.2023; qəbul edilib – 25.10.2023

# “Molla Nasraddin” and Mollanasraddinists
# in Heydar Aliyev’s scientific considerations

**Gulbeniz Babayeva**
Doctor of Philosophy in Philology, associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: gulbeniz-babayeva@mail.ru

**Abstract.** In the article is dealt with the high value of National Leader Heydar Aliyev to classical Azerbaijani literarture and national press. Great Leader always paid special attention to publishing the works, celebrating anniversaries, establishing museums and examining the works scientifically of Azerbaijani prominent representatives such as Nizami, Nasimi, Fuzuli, Vagif, M.F.Akhundzade, J.Mammadguluzade, U.Hajibeyli, S.Mumtaz and others during his time in power.
Jalil Mammadguluzade, prominent representative in Azerbaijani realistic literature of 20th century was one of the writers esteemed very highly by Great Leader. Heydar Aliyev put forward separate moments of Mirza Jalal’s heritage in his deep content speeches on the anniversaries of the writer and characterized writer’s monumental works “My Mother’s Book”, “The Deads” as a work that plays an important role in the life and destiny of the Azerbaijani people. He esteemed very highly

the historical significance of the struggle of “Molla Nasraddin” magazine published under editorship of Jalil Mammadguluzade to solve the problems of science, education, native language, and women's freedom. In addition, he kept in the center of attraction the great services in the development of our literature and press by prominent representatives of literary front of “Molla Nasraddin” such as A.Sabir, U.Hajibeyli, S.Mumtaz, including Jalil Mamamdguluzade and other mollanasraddinists.
**Keywords:** National Leader Heydar Aliyev, “Molla Nasraddin” magazine, Jalil Mammadguluzade, Mirza Alakbar Sabir, Uzeyir Hajibeyli, Salman Mumtaz, classical heritage, realistic literature

**Article history:** received – 13.10.2023; accepted − 25.10.2023

## Giriş / *Introduction*

Azərbaycan xalqının ictimai-siyasi, ədəbi-mədəni həyatında müstəsna xidmətləri olan Ulu öndərimiz Heydər Əliyev azad, müstəqil, suveren bir dövlətin qurucusu və zəmanəmizin dahi lideri kimi mənalı ömrünü doğma xalqının tərəqqisinə və xoşbəxtliyinə həsr etmişdir. Milli ədəbiyyatımızı, mədəniyyətimizi, dilimizi öz varlığı qədər sevən cənab Heydər Əliyev mənəvi sərvətlərimizə həmişə diqqət və qayğı göstərmişdir. Klassik irsimizə, mənəvi dəyərlərimizə böyük önəm verən Ulu öndərimiz bizi bütün dünyaya tanıtdıran, kimliyimizi, varlığımızı təsdiq edən söz sənətkarlarımızı, ziyalılarımızı uca tutmuş, onlar haqqında söylədiyi qiymətli fikirlərdən hər kəs qürur hissi duymuşdur. Hakimiyyətdə olduğu dövrlərdə zəngin və çoxşaxəli Azərbaycan ədəbiyyatına, milli mətbuatımıza və onun yaradıcılarına yüksək qiymət verən Heydər Əliyev Cəlil Məmmədquluzadə irsinə, onun redaktorluğu ilə nəşr edilən “Molla Nəsrəddin” jurnalına və mollanəsrəddinçilərin yaradıcılığına böyük dəyər vermişdir. O, “Molla Nəsrəddin” ədəbi hərəkatının aparıcı qüvvələri olan C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, M.S.Ordubadi, S.Mümtaz, Ü.Hacıbəyov və başqalarının satirik mətbuatımızın, Azərbaycan ədəbiyyatının təşəkkülü, formalaşması və inkişafındakı təmənnasız xidmətlərini xalqımızın tarixinə yazılmış ən qiymətli səhifələr hesab etmişdir: “XX əsr Azərbaycan ədəbiyyatının tarixinə Sabir, Cəlil Məmmədquluzadə və inqilabi-demokratik “Molla Nəsrəddin” jurnalı ətrafında birləşərək... maarifçilik və demokratik ənənələri davam və inkişaf etdirən digər yazıçıların parlaq adlarını yazmışdır” [3, s.79].

## Əsas hissə / *Main Part*

Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyinə həsr olunmuş möhtəşəm tədbirdə çıxış edən cənab Heydər Əliyev belə bir mərasimi böyük yazıçının ölməz ədəbi irsinə Azərbaycan dövlətinin və xalqının verdiyi yüksək dəyərin təzahürü kimi səciyyələndirmişdir. Azərbaycan Dövlətinin memarı C.Məmmədquluzadə yaradıcılığına və onun ədəbi fəaliyyətinin “şah əsəri” olan “Molla Nəsrəddin” jurnalına xüsusi önəm verərək, böyük realist ədibin Azərbaycanın müstəqilliyi uğrunda apardığı mübarizənin bu gün də davam etdirildiyini bəyan edərək demişdir: “Cəlil Məmmədquluzadə Azərbaycan tarixində görkəmli yer tutmuş dahi bir insan, yazıçı, publisist, filosof, mütəfəkkir, xalqımızın mədəniyyətini çox zənginləşdirmiş bir şəxsiyyətdir. O, ədəbiyyatımızın, mədəniyyətimizin klassikidir. Eyni zamanda, o bizim müasirimizdir, o bu gün də bizimlədir, bizim sıralarımızdadır. Bizimlə bərabər Azərbaycanın müstəqilliyinə sevinir və bizimlə bərabər Azərbaycan Respublikasının daim müstəqil dövlət olması uğrunda öz yaradıcılığı ilə, qoyduğu mənəvi irslə çalışmaqdadır” [4, s.240].

C.Məmmədquluzadə yaradıcılığında Azərbaycanın ictimai-siyasi həyatı, sosial mühit, elm və təhsil məsələləri, qadın azadlığı, dini xurafatın, cahilliyin tənqidi kimi taleyüklü məsələlərlə yanaşı, həm də beynəlxalq aləmdə baş verən qlobal problemlərə də geniş yer verilmişdir. Ulu öndərimiz yazıçının yaradıcılığındakı bu milli, bəşəri dəyərləri, mütəfəkkir ədibin sənətkarlığının

çoxcəhətliyini və dünyəviliyini yüksək zirvəyə qaldıraraq deyir: "Cəlil Məmmədquluzadə yaradıcılığı elə bir dəryadır ki, o dəryanın dibinə gedib çatmaq, hamısını əhatə etmək mümkün deyildir. Güman edirəm ki, hələ bir neçə nəsil Azərbaycan tarixçisi, ədəbiyyatşünası, siyasətşünası, alimi Cəlil Məmmədquluzadə xəzinəsini, yaradıcılığını araşdıracaq, onu tədqiq edərək yeni-yeni kəşflər edəcəkdir. Cəlil Məmmədquluzadə yaradıcılığı Azərbaycanın mənəviyyatını, mədəniyyətini, ədəbiyyatını dünyaya nümayiş etdirən və xalqımızın nəyə qadir olduğunu göstərən böyük bir sərvətdir" [4, s.240-241].

Heydər Əliyev Cəlil Məmmədquluzadənin Azərbaycan nəsri, publisistika və dramaturgiyasının inkişafındakı dinamik və çoxşaxəli fəaliyyətinə işıq salaraq, həm də böyük realist ədibin yaradıcılığında mühüm yer tutan tarixilik, ədəbiyyatşünaslıq və siyasətşünaslıq kimi önəmli məsələlərin təhlilə cəlb olunmasının zəruriliyini ön plana çəkir. Milli mətbuatımızın ilk satirik orqanı olan "Molla Nəsrəddin" jurnalının təkcə Azərbaycanda deyil, Yaxın və Orta Şərqdə demokratik ideyaların yayılmasında, xalqları azadlıq mübarizəsinə səsləməkdə müstəsna rola malik bir jurnal kimi səciyyələndirir. Cəmiyyətimizin bütün sahələrində olduğu kimi, elm, təhsil, mədəniyyət, incəsənətlə sıx bağlı olan, ədəbiyyatımızın və onun yaradıcılarının tarixi xidmətlərini göz önünə gətirən Ümummilli liderimiz Cəlil Məmmədquluzadəni təkcə öz əsərləri ilə deyil, həm də onu bütün dünyada tanıtdıran və şöhrət qazandıran "Molla Nəsrəddin" jurnalının Azərbaycan xalqının milli şüurunun formalaşmasında, mətbuatımızın inkişafındakı misilsiz rolunu xüsusi nəzərə çatdıraraq deyir: "Cəlil Məmmədquluzadə dühası "Molla Nəsrəddin" jurnalında öz əksini tapdı. "Molla Nəsrəddin", onun vasitəsilə Cəlil Məmmədquluzadə və jurnalın işinə cəlb olunmuş Azərbaycanın başqa mütəfəkkir adamları xalqımızın milli şüurunun formalaşmasında, milli ruhunun yüksəldilməsində, milli oyanışında böyük rol oynadılar" [4, s.242].

Cəlil Məmmədquluzadəyə "sadəcə bir ədəbiyyatçı", yazıçı, publisist kimi yox, həm də böyük ictimai xadim və böyük siyasətçi" kimi yanaşmağın zəruriliyindən bəhs edən Ulu Öndər Azərbaycanın ictimai-siyasi həyatında, milli məfkurənin və azərbaycançılıq ideologiyasının formalaşmasında mütəfəkkir ədibin ardıcıl və mütəşəkkil fəaliyyətini ön plana çəkir. Cəlil Məmmədquluzadə yaradıcılığının bütün parametrlərini diqqət mərkəzində saxlayan Ümummilli liderimiz "Molla Nəsrəddin" jurnalının 25 illik fəaliyyəti dövründə böyük ədəbi qüvvələrin Azərbaycan ədəbiyyatının satirik qolunun inkişafındakı cahanşümul xidmətlərini, sonrakı mərhələdə milli mətbuatımızın təşəkkülündəki müstəsna rolunu xüsusi qeyd etmiş və onun qoyub getdiyi zəngin irsi xəzinə adlandıraraq böyük ədibə sonsuz ehtiramını bildirmişdir.

Mətbuat tariximizdə özünəməxsus yeri olan "Molla Nəsrəddin" jurnalının milli-mənəvi dəyərlərimizin qorunması, XX əsr Azərbaycan ədəbiyyatının təkamül prosesi və ideya istiqamətlərinin müəyyənləşməsindəki əvəzsiz xidmətlərindən bəhs edən Ulu öndərimizin "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında imzaladığı fərmanda deyilir: "Molla Nəsrəddin"in müasir ədəbiyyat, maariflənmə, demokratikləşmə uğrunda mübarizəsi, onun güclü satirası jurnalla əməkdaşlıq edən şair və yazıçıların yaradıcılıq istiqamətlərini müəyyən etmiş, onların görkəmli sənətkar kimi formalaşmasında həlledici amil olmuş, beləliklə də, "mollanəsrəddinçilik" adlı böyük bir ictimai-ədəbi hərəkat yaranmışdır" [1].

C.Məmmədquluzadə öz yaradıcılığında xalqımızın milli folkloruna, şifahi söz sənətinə yüksək dəyər verərək ondan yaradıcılıqla bəhrələnmişdir. Böyük ədibin xalqın əsrlərcə yaratdığı zəngin söz xəzinəsinə ziyalı münasibəti "Molla Nəsrəddin"də dərc etdiyi məqalə və felyetonlarda da əksini tapmışdır. Yazıçının milli kökə, folklora bağlılığı onun bu zəngin sərvətimizə rəğbətindən irəli gəlirdi. Məhz Ulu öndərin Cəlil Məmmədquluzadəni milli özünüdərkin, milli ruhun, adət-ənənələrin, çoxəsrlik zəngin dəyərlərin qoruyucusu və təbliğatçısı kimi qiymətləndirməsi bu zərurətdən ortaya çıxır.

Heydər Əliyev Cəlil Məmmədquluzadəni özünün müasiri, bugünkü Azərbaycanın fəal qurucusu, cəsarətli, vətəndaşlıq hissini uca tutan bir yazıçı kimi xarakterizə edərək deyir: "O dövrdə həm milliliyə bağlı olmaq, həm də dünyəvi, ümumbəşəri dəyərləri qiymətləndirmək, onları öz yaradıcılığında əks etdirmək və xalqımızın ümumi səviyyəsini qaldırmaq cəhdləri böyük

vətəndaşlıq cəsarəti idi, böyük xidmətdir və bunu biz daim qiymətləndirməliyik. Ona görə də C.Məmmədquluzadənin yaradıcılığı, əsərləri bu gün bizim milli ideologiyanın formalaşmasına, yaranmasına və onun konsepsiyasının elmi şəkildə hazırlanmasına çox kömək edə bilər və çox kömək edəcəkdir" [4, s.243].

"Molla Nəsrəddin" jurnalı 25 illik fəaliyyəti dövründə Azərbaycan dilinin milli təəssübkeşi olmuş, öz səhifələrində dərc etdirdiyi məqalə, felyeton, satirik şeir, teleqraf xəbərləri və digər janrlı yazılarda ana dilimizin rus, ərəb, fars və sair dillər vasitəsilə korlanmasına qarşı çıxmış, yad dillər içərisində itib-batmasından ciddi narahatlıq keçirmişdir. Realist sənətkar bu taleyüklü məsələyə ciddi önəm vermiş, az qala jurnalın hər sayında bu problemin aktuallığından söhbət açmış, Azərbaycan dili haqqında həm özünün, həm də mollanəsrəddinçi əqidə və məslək dostlarının yüzlərlə yazılarını dərc etdirmişdir. Ümummilli lider C.Məmmədquluzadənin ana dilini milli müstəviyə çıxarmasını, xalqımızın müqəddəratının əsas atributlarından biri kimi səciyyələdirməsini yazıçının vətəndaşlıq mövqeyi və azərbaycançılıq ideologiyasının təzahürü kimi mənalandırır: "C.Məmmədquluzadənin fəaliyyətində ən dəyərli cəhətlərdən biri də Azərbaycan xalqının dilinin inkişafı üçün göstərdiyi xidmətlərdir. Onun daim işlətdiyi "Vətən, Vətən, Vətən! Millət, Millət, Millət! Dil, Dil, Dil! sözləri xalqımızın, millətimizin fikirlərini, arzularını ifadə edir. Ədibin ana dilinə – Azərbaycan dilinə böyük diqqəti, ana dilini bilməyə səsləməsi və ana dilinin, Azərbaycan dilinin hər yerdə hökm sürməsinin zəruriliyinə dair fikirləri, yazıları o vaxt üçün vacib idi, bu gün də çox aktualdır" [4, s.243].

Heydər Əliyev ana dilinin təmizliyi, saflığı uğrunda bütün ömrü boyu mübarizə aparmış, böyük ədibimizin yaradıcılığına bir çox parametrlərdən nəzər salmış, istər onun nasir, istər publisist, istərsə də dramaturji fəaliyyətində ana dilinə bu dərəcədə yüksək qiymət verməsini və bütün ziyalılarımızı milli sərvətimiz olan dilimizi qorumağa səsləməsini yazıçının daxili aləminin zənginliyindən, vətəndaşlıq hissindən qaynaqlandığını və xalqına xidmətin bariz nümunəsi olduğunu göstərmişdir.

Heydər Əliyev C.Məmmədquluzadənin "Anamın kitabı" əsərinə istinad edərək bildirmişdir ki, bu gün də belə hallar mövcuddur. O, realist sənətkarın belə aktual bir mövzuya müraciət etmə-sini C.Məmmədquluzadənin uzaqgörənliyi və milli təəssübkeşliyi ilə əlaqələndirmişdir: "Anamın kitabı" əsəri Azərbaycan üçün çox dahiyanə əsərdir. Çünki bizim xalqımız, respublikamız, Şərqin və Qərbin, Şimalın və Cənubun qovuşuğundadır. Əsrlər boyu ayrı-ayrı istiqamətlərdən xalqımıza təsirlər olmuşdur. Mədəniyyətimizin və elmimizin inkişafına da bu təsirlər olmuşdur. Ancaq xalqımızın dahi simaları Azərbaycan dilini, Azərbaycan milliliyini, milli şüurunu, milli məfkurəsini daim yaşatmışdır" [4, s.243].

Cəlil Məmmədquluzadə irisinin və onun redaktorluğu ilə nəşr olunan "Molla Nəsrəddin" jurnalının fundamental araşdırıcısı akademik İsa Həbibbəyli Heydər Əliyevin böyük demokrat ədib haqqında söylədiyi dəyərli fikirlərin davamı olaraq yazır: "Cəlil Məmmədquluzadə təkcə mətbuatda yox, həm də ədəbiyyatda azərbaycançılıq məfkurəsinin ideoloqudur... Qüdrətli ədib bu mövzunu ən parlaq şəkildə 1920-ci ildə qələmə aldığı "Anamın kitabı" dramında əks etdirmişdir. "Anamın kitabı" – Azərbaycanın milli istiqlalı haqqında XX əsr boyu yazılmış əsərlərin mənəvi Anasıdır" [7, s.618].

XX əsrin əvvəllərində dövrün böyük ziyalıları – Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyli, Firidun bəy Köçərli, Abdulla Şaiq, Nəriman Nərimanov və başqaları tərəfindən irəli sürülən ana dilinin saflığı, təmizliyi uğrunda mübarizə və onun qorunub saxlanması, gələcək nəsillərə ötürül-məsi kimi önəmli məsələlər sonrakı dönəmlərdə də diqqət mərkəzində saxlanılmışdır. Az qala bir əsrə qədər davam edən bu ardıcıl və prinsipial mübarizəni 1978-ci ildə Heydər Əliyev cənabları Azərbaycan dilini dövlət dili kimi Azərbaycan SSR-in Konstitusiyasına daxil etməklə təsbit edə, reallaşdıra bildi.

Heydər Əliyev C.Məmmədquluzadə ilə yanaşı, "Molla Nəsrəddin" jurnalında çıxış edən Salman Mümtazın həyat və fəaliyyəti haqqında söhbət açaraq demişdir: "Bilirəm ki, 38-ci ildə o, repressiya olunubdur, eşitdiyimə görə güllələnibdir. Azərbaycan xalqının qarşısında onun

xidmətləri böyükdür. Bilirsinizmi, 50-ci illərdə mən Bakıya DTK-da işləməyə gəldikdən sonra bir neçə adamla söhbət etdim. Onlar mənə danışırdılar ki, 37-38-ci illərdə ermənilər, başqa millətlərə mənsub olan adamlar Salman Mümtazın və onun kimi digər adamların evlərindən çox dəyərli əsərləri, əlyazmaları elə oradaca, evlərin həyətlərinə zibil kimi atmışlar...

37-ci ildən 50-ci ilədək baş vermiş hadisələrin şahidləri var və bunları mənə onlar danışıblar" [5, s.321]. Göründüyü kimi, 37-ci ilin repressiyası mollanəsrəddinçilərin də həyatından yan keçməmişdir. Ulu öndər o ağır illəri təəssüflə xatırlamış və Salman Mümtazın xalqımızın tarixində qalacaq böyük bir şəxsiyyət olduğunu xüsusi qeyd etmişdir.

Azərbaycan ictimai fikir tarixində özünəməxsus yeri olan bəstəkar, yazıçı, publisist dahi Üzeyir Hacıbəyov da "Molla Nəsrəddin"də dərin məzmunlu felyeton və məqalələri ilə çıxış edərək, xalqımızın problemlərini gündəmə gətirmişdir. Heydər Əliyev Üzeyir Hacıbəyov şəxsiyyətinə və sənətinə hörmətlə yanaşaraq demişdir: "Üzeyir Hacıbəyovun yaradıcılığı Azərbaycan xalqının milli sərvətidir. Üzeyir Hacıbəyov şəxsiyyəti Azərbaycan xalqının iftixarı, bizim milli iftixarımızdır. Üzeyir Hacıbəyov gəncliyini Şuşada keçirmişdir. Şuşa hər bir azərbaycanlı üçün əziz, müqəddəs bir şəhərdir. Üzeyir Hacıbəyov daim Azərbaycanın ərazi bütövlüyü uğrunda vuruşmuşdur. 1918-1920-ci illərdə yazdığı məqalələri oxuyarkən düşünürsən: O sözlər bu gün üçün nə qədər aktualdır! O vaxtkı vəziyyət bu gün yenidən meydana çıxmışdır. Ermənistanın Azərbaycana qarşı qəsbkarlığı, torpaqlarımızı ələ keçirmək cəhdi və vətənpərvər insanlarımızın ölkəmizi qoruması o vaxt da belə olmuşdur. Üzeyir Hacıbəyov o vaxt bu yolda çalışmışdır, bu gün də, təəssüf ki, tarix belə gətirmişdir. Biz hamımız birlikdə Üzeyir Hacıbəyov kimi insanların qoyduğu yol ilə gedərək Azərbaycanın müstəqilliyini, Azərbaycanın ərazi bütövlüyünü qoruyub saxlamağa çalışırıq" [6, s.297].

## Nəticə / *Conclusion*

Ümummilli liderimizin "Molla Nəsrəddin" və mollanəsrəddinçilərlə bağlı həyata keçirdiyi siyasi kurs bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Möhtərəm Prezidentin Cəlil Məmmədquluzadənin anadan olmasının 140 illik yubileyi ilə əlaqədar 6 fevral 2009-cu ildə imzaladığı sərəncamda deyilir: "Cəlil Məmmədquluzadənin təşəbbüsü, redaktorluğu və naşirliyi ilə çap olunan "Molla Nəsrəddin" jurnalı ölkənin ədəbi-publisistik həyatında müstəsna rol oynamış, milli məfkurənin formalaşmasına öz layiqli töhfəsini vermişdir. Klassik Azərbaycan və dünya bədii fikri ənənələrindən, xalq yumorundan məharətlə bəhrələnən sənətkarın milli oyanışa səsləyən yaradıcılığı həm Qafqaz xalqlarının, həm də bir sıra Şərq ölkələrinin ədəbiyyatına böyük təsir göstərmişdir" [2].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2006-cı ildə "Molla Nəsrəddin" jurnalının 100 illiyinin və mollanəsrəddinçilərin yubileylərinin keçirilməsi, xatirələrinin əbədiləşdirilməsi klassik irsimizə və milli mətbuatımıza verilən yüksək qiymətin real təzahürüdür.

## Ədəbiyyat /*References*


1. "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. "Xalq qəzeti", 28 mart 2000-ci il, № 64.
2. Azərbaycan Respublikası Prezidentinin Cəlil Məmmədquluzadənin anadan olmasının 140 illik yubileyi ilə əlaqədar Sərəncamı. "Azərbaycan" qəzeti, 7 fevral 2009-cu il.
3. Əliyev, Heydər. Xalq işinə xidmət etməli. Azərbaycan yazıçılarının VI qurultayında nitq. Ədəbiyyatın yüksək borcu və amalı. – Bakı: Avropa, 1999/
4. Əliyev, Heydər. Cəlil Məmmədquluzadə Azərbaycan xalqının milli dirçəlişində əvəzsiz rol oynamışdır. Mirzə Cəlilin 125 illik yubileyində nitq. Ədəbiyyatın yüksək borcu və amalı. – Bakı: Ozan, 1999.

5. Əliyev, Heydər. Dahi Füzulinin yubileyi ədəbiyyatımızın və mədəniyyətimizin bayramıdır. M.Füzulinin yubileyi üzrə Dövlət Komissiyasının növbəti iclasında çıxış. Ədəbiyyatın yüksək borcu və amalı. – Bakı: Ozan, 1999.
6. Əliyev, Heydər. Dünya korifeylərinin öncülü. Ü.Hacıbəyovun 110 illik yubileyində nitq. Ədəbiyyatın yüksək borcu və amalı. – Bakı: Ozan, 1999.
7. Həbibbəyli, İsa. Ədəbi-tarixi yaddaş və müasirlik. – Bakı: Nurlan, 2007.

## «Молла Насреддин» и молланасреддинцы в научных оценках Гейдара Алиева

**Гюльбениз Бабаева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: gulbeniz-babayeva@mail.ru

**Резюме.** В статье говорится о высокой оценке, данной общенациональным лидером Гейдаром Алиевым классической азербайджанской литературе и национальной печати. В период нахождения у власти великий лидер всегда уделял особое внимание привлечению к научному анализу творчества выдающихся представителей богатой многовековой азербайджанской литературы Низами, Насими, Физули, Вагифа, М.Ф.Ахундзаде, Дж.Мамедгулузаде, У.Гаджибейли, С.Мумтаза и других мастеров пера, изданию их произведений, проведению юбилеев, созданию их музеев. Одним из писателей, творчество и общественная деятельность которого были высоко оценены великим лидером, был выдающийся представитель азербайджанской реалистической литературы XX века Джалил Мамедгулузаде. В своих глубокомысленных и содержательных докладах и выступлениях по случаю юбилеев литератора Гейдар Алиев, выделяя на первый план отдельные черты наследия Джалила Мамедгулузаде, оценивал его монументальные произведения «Книга матери», «Мертвецы» как играющие особую роль в жизни и судьбе азербайджанского народа. Так же высоко великим лидером было оценено историческое значение борьбы Джалила Мамедгулузаде в редактируемом сатирическом журнале «Молла Насреддин» в направлении решения проблем науки, образования, родного языка, женской эмансипации. Наряду с этим, в центр внимания лидера привлечены значительные заслуги известных представителей литературного фронта возглавляемого Джалилом Мамедгулузаде журнала «Молла Насреддин», М.А.Сабира, У.Гаджибейли, С.Мумтаза и других молланасреддинцев в деле развития нашей литературы и печати.
**Ключевые слова:** общенациональный лидер Гейдар Алиев, журнал «Молла Насреддин», Джалил Мамедгулузаде, Мирза Алекбер Сабир, Узеир Гаджибейли, Салман Мумтаз, классическое наследие, реалистическая литература